# Azərbaycan Respublikasının «Tərəqqi» medalının Əsasnaməsinin və təsvirinin təsdiq edilməsi haqqında

# Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır**:

Azərbaycan Respublikasının «Tərəqqi» medalının Əsasnaməsi və təsviri təsdiq edilsin (əlavə olunur).

***Azərbaycan Respublikasının Prezidenti***

***Heydər ƏLİYEV***

***Bakı şəhəri, 6 dekabr 1993-cü il***

***№ 758***

***«Azərbaycan» qəzetində dərc edilmişdir (18 dekabr 1993-cü il, № 245) («VneshExpertService»).***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (1993-cü il, № 23-24, maddə 681) («VneshExpertService»).***

***6 fevral 1998-ci il tarixli, 429-IQD nömrəli; 30 mart 2004-cü il tarixli, 612-IIQD nömrəli; 30 sentyabr 2013-cü il tarixli, 727-IVQD nömrəli Qanunlara əsasən dəyişikliklərlə («VneshExpertService»).***

*Azərbaycan Respublikasının*
*1993-cü il 6 dekabr tarixli*
*758 saylı Qanunu ilə*
*təsdiq edilmişdir.*

# Azərbaycan Respublikasının «Tərəqqi» medalının Əsasnaməsi

1. Azərbaycan Respublikasının «Tərəqqi» medalı Azərbaycan Respublikasının vətəndaşlarına, əcnəbi vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə aşağıdakılara görə verilir:

- sənaye və kənd təsərrüfatı sahəsində qazandıqları uğurlara görə;
- böyük əhəmiyyətli ixtiralara və səmərələşdirici təkliflərin verilməsinə görə;
- elm, mədəniyyət, ədəbiyyat, incəsənət, xalq təhsili və səhiyyə sahələrində xidmətlərinə görə;
- xalq təsərrüfatı obyektlərinin inşasında, yenidən qurulmasında görkəmli xidmətlərinə görə;
- bədən tərbiyəsi və idmanın inkişafında səmərəli fəaliyyətinə görə.

2. «Tərəqqi» medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda «İgidliyə görə» medalından sonra taxılır.

*Azərbaycan Respublikasının*
*1998-ci il 6 fevral tarixli,*
*429-IQD nömrəli Qanunu ilə*
*təsdiq edilmişdir.*

# *«Tərəqqi» medalının təsviri*

*«Tərəqqi» medalı milli ornamentli ensiz lövhə ilə birgə bürüncdən tökülmüş 36 mm diametrli dairəvi lövhədir, kənarları yaşıl minalı hərəkət simvollu haşiyələrdən ibarətdir.*

*Medalın mərkəzində çiçəklənmə rəmzi təsvir olunmuşdur və onun üzərində çevrə boyunca «Tərəqqi» sözü yazılmışdır. Gül təsviri və yazı qabarıqdır.*

*Arxa tərəfi hamar səthlidir, ortasında medalın seriyası və nömrəsi həkk olunmuşdur.*

*Medal paltara bərkidilmək üçün elementi olan, 37 mm x 50 mm ölçüdə yaşıl çalarlı düzbucaqlı xara lentə halqa və ilgək vasitəsilə birləşdirilir. Xara lentin sağ və sol kənarlarından mərkəzə doğru ardıcıl olaraq 1 mm, 2 mm və 1 mm enində göy rəngli üç şaquli zolaq yerləşir. Xara lentin yuxarı hissəsinə 40 mm x 5 mm ölçülü bürünc rəngli təbəqə bərkidilir.*

*Medala paltara bərkidilmək üçün elementi olan, eyni xara lentdən hazırlanmış 37 mm x 10 mm ölçülü qəlib əlavə olunur.*

